Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

İqtisadi Təşəbbüslərə Yardım
Support For Economic Initiatives

EDF
SBIIYF

İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi

# "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" layihəsi

# "Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyası

# Regionların tarazlı inkişafı: 2013-2016-cı illərdə bölgə inkişafı ilə bağlı iqtisadi siyasətin monitorinqinin əsas nəticələri

*Rövşən Ağayev*

# Tarazlı bölgə inkişafı: əsas hədəflər

**“Azərbaycan 2020: Gələcəyə baxış” Konsepsiyasında** əsas hədəflər:

- ***Bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyalarının əlaqələndirilməsi;***
- ***Xərc-gəlir təhlilləri əsasında iqtisadi səmərəlilik baxımından prioritetləşdirilməsi;***
- ***Həyat səviyyəsinə və keyfiyyətinə görə fərqlərin azaldıması;***
- ***Adambaşına düşən məhsul buraxılışına və investisiyaların həcminə görə fərqlərin azaldılması;***

# Tarazlı bölgə inkişafı: əsas hədəflər (davamı)

- *Əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlərin aradan qaldırılması;*

- *Müasir yanaşma çərçivəsində iqtisadi qərarların qəbul olunmasında yerli özünüidarəetmə orqanlarının çevikliyinin artırılması;*

- *Ölkənin bölgələrində kommunal infrastruktur və yol təminatının yaxşılaşdırılması, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi;*

# Tarazlı bölgə inkişafı: əsas hədəflər (davamı)

- *Bölgələrdə informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi;*
- *Kənd yerlərinin inkişafı istiqamətində xüsusi layihələrin həyata keçiriləməsi;*
- *Turizm və rekreasiya zonalarının yaradılması;*
- *İqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin yaradılması;*

# Tarazlı bölgə inkişafı: əsas hədəflər (davamı)

- *Hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla yeni regional inkişaf mərkəzlərinin yaradılması;*

- *Regional inkişaf mərkəzləri vasitəsilə bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsi stimullaşdırılması;*

- *Regional bərabərsizliyin azaldılması, iqtisadi resursların əsasən mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngidilməsi;*

# İnvestisiya siyasəti: əsas prioritetlər (davamı)

- Kənd təsərrüfatı, ilik növbədə südlük maldarlıq təsərrüfatlarının, taxılçılığın, pambıqçılığın, tütünçülüyün, quşçuluğun, ipəkçiliyin, tərəvəzçiliyin, üzümçülüyün inkişafı;

- Qida sənayesinin dəstəklənməsi;

- Tikinti məmulatları sənayesi;

- Metallurgiya sənayesinin dəstəklənməsi:

# İnvestisiya siyasəti: əsas prioritetlər

- **Maşınqayırma və innovativ-texnoloji məhsulları sənayesinin dəstəklənməsi;**
- **Yüngül sənaye sektorunun inkişafı;**
- **Turizmin inkişafı;**
- **İnfrastrukturun qurulması;**

# Regionlar arasında iqtisadi fərqlər

- **Paytaxt və regionların iqtisadiyyatda payı:**
  - ✓ ***ÜDM – Bakı 75%, yerdə qalan regionlar 25%***
  - ✓ ***Adambaşına ÜDM - Bakı 18500 manat, yerdə qalan regionlar 1850 manat***

- **İnzibati rayonlar üzrə ümumi məhsul buraxılışı**
  - ✓ ***Ən aşağı göstərici – Yardımlı 950 manat, ən yüksək göstərici Xızı 5000 manat***

- **İnvestisiya qoyuluşları (2012-2015)**
  - ✓ ***47.9 milyard manat – Bakı 34.1 milyard manat (71.2%), digər regionlar 13.8 milyard manatı (28.8%)***

# Regionlar arasında iqtisadi fərqlər

- **Dövlət büdcəsinin vergi gəlirləri**
  - ***Bakı şəhəri üzrə 6.4 milyard manat (88.8%), regionlar üzrə 766 mln. manat (11.2%)***
  - ***Dövlət büdcəsində regionların payı 4.5%***
  - ***Adambaşına vergi gəlirləri – Bakı 2850 manat, ən aşağı göstəricisi olan rayon Tovuz (27 manat), ən yüksək göstərici İmişli (169 manat)***

# Kənd inkişafı və infrastruktur təminatının yaxşılaşdırılması

- **Kənd inkişafı ilə bağlı əsas layihələr:**
  - *Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) - "Şimal Qərb İnkişafı" layihəsi və "Kənd Yerlərinin Kompleks İnkişafı"*
  - *Dünya Bankının həyata keçirdiyi layihələr - "Azərbaycan Kənd İnvestisiya Layihəsi"*

- **Regional infrastruktur layihələri –** *təbii qaz, elektrik enerjisi, içməli su və kanalizasiya, yol-nəqliyyat, sosial infrastruktur, meliorasiya və suvarma suyu, rabitə-informasiya xidmətləri*

# Regional klasterlərin yaradılması

- **Turizm və rekreasiya zonalarının yaradılması**
- ***NK-nin 01.08. 2016-cı il tarixli 286 saylı qərarı - “Xızı-Xaçmaz”, “Quba” və “Qusar” turizm və rekreasiya zonaları yardılıb***
- **Ərazi-istehsal klasterlərinin yaradılması**
- **İxtisaslaşmış sənaye parklarının yaradılması ilə bağlı qərarlar: Sumqayıt Kimya Parkı, Mingəçevir Yüksək Texnolgiyalar Parkı, Mingəçevir Toxuculuq Parkı.**
- **Regional inkişaf mərkəzlərinin yaradılması**

# Regional inkişafa yönəlik normativ-hüquqi aktlar

- “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə”;
- “Texnologiya parkları haqqında Nümunəvi Əsasnamə”;
- Şəki şəhərinin 2030-cu ilə qədərki dövrdə inkişafına dair Baş Plan;
- “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”;
- Naftalan şəhərinin 2033-cü ilə qədərki dövrdə inkişafına dair Baş Plan;
- “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”;

# Regional inkişafa yönəlik normativ-hüquqi aktlar

- “Kənd təsərrüfatı kooperasiyası haqqında” Qanun
- Xızı-Xaçmaz, Quba, Qusar turizm və rekreasiya zonaları ilə bağlı qərar
- İpəkçiliyin inkişafına dövlət dəstəyi
- Pambıqçılığın inkişafına dövlət dəstəyi
- Tütünçülüyün inkişafına dövlət dəstəyi
- “Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası”
- İnvestisiyaların təşviqi qaydaları

# Regional iqtisadi inkişaf siyasətinin formalaşdırılması: əsas çağırışlar

- Regional inkişaf proqramlarında bölgələrin sosial-iqtisadi inkişafında fərqlərin azaldılmasını ölçmək üçün nəticə indikatorlarının nəzərdə tutulması vacibdir
- Regionların rəqabət qabiliyyətliliyinin səviyyəsini qiymətləndirməyə imkan verən mexanizmlərin tətbiqi məqsədəuyğundur
- Rəqabət qabiliyyətliliyinə görə regionların reytinqinin tərtib edilməsi regional klasterlərin inkişafı üçün zəruri yanaşma formalaşdıra bilər
- İcra olunan regional inkişaf proqramların nəticəsini qiymətləndirməyə imkan verən kəmiyyət-keyfiyyət göstəricilərinin istifadəsinə ehtiyac var

# Regional iqtisadi inkişaf siyasətinin formalaşdırılması: əsas çağırışlar

- Hər bir bölgənin spesifik coğrafi və iqtisadi inkişaf xüsusiyyətləri və potensialı nəzərə alınmaqla bölgə iqtisadi inkişaf planlarının hazırlanması məqsədəuyğundur;
- Spesifik olaraq kənd inkişafı proqramlarının hazırlanması təcrübəsindən istifadə edilə bilər;
- Mandatı bilavasitə həm mərkəzi, həm də yerli səviyyədə regional inkişaf məsələləri olan ixtisaslaşmış dövlət institutları yaradıla bilər;
- Yerli özünüidarə bölgə inkişafı ilə bağlı geniş səlahiyyətlərinin artırılmasına ehtiyac var;

# Regional iqtisadi inkişaf siyasətinin formalaşdırılması: əsas çağırışlar

- Bölgələrin mövcud iqtisadi potensialından, coğrafi vəziyyətindən asılı olaraq fərqli təşviq mexanizmləri və siyasət alətlərinin hazırlanmasına ehtiyac var;
- Regionların inkişafına dair hərtərəfli və etibarlı statistik məlumat bazası formalaşdırılması mühümdür;
- İxtisaslaşmış sənaye parklarının və turzim bölgələrinin timsalında regional klasterlərin fəaliyyətinin nəticələrinə dair müfəssəl hesabatların ictimaiyyət üçün açıq olması vacibdir;

# Əsas nəticələr

- **Paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf fərqləri kəskindir;**
- **Adambaşına ÜDM həcminə, büdcə gəlirlərinin səviyyəsinə, investisiyaların həcminə görə bu fərq 10-15 dəfə intervalındadır;**
- **Fərqlər təkcə paytaxtla bölgələr arasında deyil, bölgələrin öz aralarında da müşahidə edilir;**
- **Regional inkişaf proqramları icra prosesinin sonunda bu fərqlərin azaldılmasını ölçməyə imkan verən hədəf göstəricilərinə və nəticə indikatorlarına malik deyil;**
- **Bütün bölgələr üzrə işsizliyin və yoxsulluğun real səviyyəsini əks etdirən etibarlı və əhatəli rəsmi statistik məlumat bazası formalaşdırılmayıb;**

# Əsas nəticələr (davamı)

- **Bütün bölgələr üzrə kommunal xidmətlərlə təchizat səviyyəsini əks etdirən etibarlı və əhatəli rəsmi statistik məlumat bazası formalaşdırılmayıb;**
- **Sosial-iqtisadi inkişafda geri qalan, əlverişsiz coğrafi mövqeyə malik regionların üstün inkişaf etdirilməsi ilə bağlı mexanizm və alətlər mövcud deyil;**
- **Zəif inkişaf edən regionları regionları müəyyən etmək üçün meyarlar mövcud deyil;**
- **Regionların spesifik coğrafi şəraiti və iqtisadi xüsusiyyətləri nəzərə almaqla proqram və strategiyalar hazırlamaq təcrübəsi yoxdu;**

# Əsas nəticələr (davamı)

- Regional inkişafın institusional çərçivələri,  prosesin aktyorlarının sayı xeyli məhduddur;
- İxtisaslaşımış tənzimləyici qurumlar, müxtəlif resurslar vasitəsilə inkişafı dəstəkəyən  regional inkişaf mərkəzləri (yaxud agentlik və fondları) yoxdu;
- Geniş iqtisadi və administrativ muxtariyyətə malik yerli özünüidarə orqanları yoxdur;
- Regionların rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi və regional inkişaf siyasəti hazırlanarkən bu qiymətləndirmənin nəticələrinin nəzərə alınması mexanizmləri mövcud deyil;
- Regional inkişafda klaster yanaşmasının tətbiqi üçün addım və fəaliyyətlər kifayət qədər məhduddur;

# Təklif və tövsiyyələr

- *Bölgələrin rəqabət qabliyyətliliyini müəyyən etmək üçün mexanizmlər hazırlanmalı;*
- *Regional sosial-iqtisadi problemlərin həllində bələdiyyələrin iştirakını atırmaq üçün onlaırn administrativ və maliyyə potensialının gücləndirilməli;*
- *Hökumət regional inkişaf proqramlarının yekunlarını və effektivliyini qiymətləndirmək üçün nəticə indikatorları müəyyən edilməli;*
- *Azərbaycanda  regional inkişafın institusionanal potensialının təkmilləşdirilməli;*

# Təklif və tövsiyyələr (davamı)

- *İqtisadi baxımdan geri qalan bölgələrin üstün inkişaf etdirilən regionlar kimi qəbul edilməsi üçün meyar və prinsiplər hazırlanmalı;*
- *Hər bir iqtisadi rayon üzrə məxsusi inkişaf proqram hazırlanmalı;*
- *Kənd inkişafı üzrə Milli Strategiyanın və zəruri proqramlaırn işlənməsi təcrübəsindən istifadə edilməli;*
- *Regional klasterlərin yaradılması ilə bağlı strategiya işlənməli.*

# TƏŞƏKKÜRLƏR